

# Heydər Əliyev İli 2023

*Deyilən söz yadigardır! - Məşhur və real gerçəkliyi əks etdirən fikirdir!*

*Bəli, insanlar haçansa haqq dünyasına qovuşurlar, sözləri və əməlləri isə həm ürəklərdə, həm xatirələrdə, həm də həyatda yaşamaqda davam edir.*

*Xüsusən də seçilmiş, xalqın qəlbində özünə yer almış insanların.*

*Ulu Öndər Heydər Əliyev həyatı boyu yaratmış, qurmuş, doğma Azərbaycanı inkişaf etdirmiş, yüksəltmiş, insanlara saysız-hesabsız köməkliklər göstərmiş, xeyirxahlıq etmişdir!*

*Kimini oxutmuş, kimini vəzifə pillələri ilə irəli çəkmiş, kimini haqsızlıqlardan qorumuş, kimini ağır xəstəlikdən müalicə etdirmiş, mənzil vermiş, kiminin əməyini layiqincə qiymətləndirmiş, kiminin isə çətin günündə dadına çataraq maddi və mənəvi problemlərini həll etmişdir.*

*Bu insanların bir qismi bu dahi şəxsiyyətin onlara arxa durduğunu, nəcib və alicənab dəstəyini unutmamış, daim minnətdarlıqla anmış, xoş xatirəyə çevirmişlər.*

*"Azərbaycan" qəzeti həmin insanların bir qismi ilə görüşərək hələ sağlıqlarında xatirələrini qələmə almış, qəzet səhifələrinə çıxarmış, 2013-cü ildə isə "Heydər Əliyev mənim həyatımda" adlı ikicildlik kitabda nəşr etmişdir.*

*Bu gün Azərbaycan xalqı böyük ehtiram və minnətdarlıq hissi ilə Ulu Öndərin 100 illiyini 2023-cü il çərçivəsində qeyd edir.*

*İnsanlar yaşamasalar da, xeyirxah əməllər, böyük qəlb sahiblərinə verilən dəyər yaşayır.*

*"Heydər Əliyev mənim həyatımda" kitabında yer almış bəzi xatirələri yenidən möhtərəm oxucularımızın diqqətinə təqdim edirik.*




# Allaha şükürlər edək ki, bizim Heydər Əliyevimiz olub

## Əbülfəz Elçibəy hakimiyyətdə olduğu zaman həmişə deyirdi ki, hamımız bu kişinin şəklini kabinetlərimizdə divara vurmalıyıq, o bizi ermənilərin, gürcülərin, rusların kölgəsindən çıxarıb

**Heydər Əliyev haqqında danışanda onun şəxsiyyətinin ucalığını etiraf etməmək, Azərbaycan üçün kim olduğunu deməmək günahdır. Həmişə kiməsə münasibət bildirəndə məsələyə təkcə insan təfəkkürü deyil, həm də təbiət nöqteyi-nəzərindən yanaşıram. Ta qədim dövrlərdən indiyədək insanlar çıxılmaz vəziyyətə düşəndə bütlər, Allahlar axtarmağa başlayıblar ki, çətinlikdən çıxsınlar. Volterin dahiyanə bir fikri var: "Allah olmasaydı, insanlar onu uydurmalıydılar".**



1993-cü ildə Azərbaycan, doğrudan da çıxılmaz vəziyyətə düşmüşdü. Volterin təbirincə desəm, Heydər Əliyev olmasaydı, gərək Heydər Əliyevi uyduraydıq. Amma xoşbəxtlikdən uydurmağa ehtiyac qalmadı. Yəni o var idi və hakimiyyətə gəldi.

Burada tarixə ekskurs edirəm. 1993-cü ildə hakimiyyətə gələndə haqqında çox oxuyub-eşitmişdim. Qərbin demokratik, bizim isə müxalifət mətbuatında yazırdılar. "General gəldi...", "DTK generalı gəldi..." və s. Deməli, xalqın generallara da ehtiyacı olur. Onlara üz tuturlar ki, xalqı çətin vəziyyətdən çıxarsınlar. Təkcə XX əsrdə yaşamış bir neçə adamın adını çəkmək istəyirəm: Atatürk, Şarl de Qoll, Adenauer. Yəni generalların üsul-idarələrini və rəhbərlik mexanizmlərini kənara qoyuram. General kimdir? Qətiyyətli, əmr vermək və adamları arxasınca aparmaq bacarığına malik şəxs... 1993-cü ildə Heydər Əliyev gələnədək Azərbaycanda vəziyyət necə idi? Qətiyyətsizlik və əmr verə bilmək bacarıqsızlığı. General mütləq bacarıq sahibi olmalıdır.

1991-ci ildə rəhmətlik dostum Əbülfəz Elçibəyin Xalq Cəbhəsinin Ali Məclisinin iclasında prezidentliyə namizədliyi irəli sürüləndə üç adam onun əleyhinə səs verdi. Onlardan biri mən idim. Hətta hərəkətimə təəccüblənənlər də oldu. Amma buna baxmayaraq, hiss edirdim ki, Əbülfəz Elçibəy kimi adamın prezident olması Azərbaycan üçün hələ tezdir. Çünki onun kimi adamlar İsveç, Hollandiya, Danimarka kimi ölkələrdə prezident ola bilərdilər. Sonralar Elçibəyin prezidentliyi dövründə fəaliyyətindəki çatışmazlıqlar - rəhbərliyi və aparat işini bilməməsi, tam qətiyyətlə əmr vermək bacarıqsızlığı dediklərimi sübuta yetirdi.

Bunadək isə Heydər Əliyevin 1969-cu ildən 1987-ci ilədək olan fəaliyyətinin bir neçə istiqaməti haqqında danışmaq istərdim. Əvvəla, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi, sonra üzv olması asan iş deyildi. İndi sinəmizə döyürük ki, sovet dövründə belə oldu, elə oldu. O, Moskvaya çağırılanda, yəni 1982-ci ildə şəxsən rəhmətlik Elçibəylə mən içki məclisi qurub bu hadisəni böyük bayram kimi qeyd etmişik. Əbülfəz bəy hakimiyyətdə olduğu zaman həmişə deyirdi:

- Hamımız bu kişinin şəklini kabinetlərimizdə divara vurmalıyıq. O bizi ermənilərin, gürcülərin, rusların və başqalarının kölgəsindən çıxarıb...

Əslində, beləydi. Cənab Əliyev indiyədək Azərbaycandan SSRİ rəhbərliyində təmsil olunan yeganə şəxsiyyət idi. Ona qədər isə Azərbaycana rəhbərlik edənlər arasında ancaq Mircəfər Bağırov cəmi bircə dəfə SSRİ KP MK Rəyasət Heyətinə namizəd seçilmişdi (həmin dövrlərdə Siyasi Büro yox idi - red.), o da bir neçə ay çəkdi. Heydər Əliyev rəhbərliyə gəldikdən sonra respublikanı kölgədən çıxartdı. İlk növbədə, qonşularımızın - Ermənistan və Gürcüstanın kölgəsindən. Əliyev Şevardnadzedən də əvvəl Siyasi Büroya namizəd və üzv seçildi. Amma ermənilərdən bir nəfər də olsun, heç vaxt bu şərəfə layiq görülmədi.

Sovet dövründə Azərbaycanda dissident hərəkatının yaranmasının qarşısını məhz Heydər Əliyev alıb və onun yaranmasına imkan vermədi. Deyərdim ki, bunu çox böyük uzaqgörənliklə etdi. 70-ci illərdə yaşayıb-yaradanlar - vicdanı, obyektivlik duyğusu olan bir nəfər də bunu inkar edə bilməz. Heydər Əliyev Azərbaycan KP MK-yə rəhbərlik edəndə bizim ədəbi jurnallarda elə əsərlər dərc edilirdi, nəşriyyatlarda elə ədəbi kitablar buraxılırdı ki, hətta avropalılığı ilə öyünüb sinəsinə döyən Baltikyanı respublikalar da həmin şeir və povestləri oxuyanda əsərlərin Sovet Bakısında hazırlandığına inanmırdılar. Deyim ki, o vaxtlar ədəbi jurnallara başçılıq edən şəxslər - Yusif Səmədoğlu, Əkrəm Əylisli və Anar dissident olmağa tamamilə hazır insanlar idi. Lakin Heydər Əliyev təfəkkürü və diplomatiyası sayəsində bu işin qarşısını aldı. Onlarla söhbət edib dedi ki, nə istəyirsinizsə, qəbul olunur, oturun, işləyin.

Özü də elə bir zamanda ki, hər sətrində, hər sözündə səni vurmaq, gözdən salmaq üçün nəsə axtarırdılar. Məsələn, bəstəkar Emin Sabitoğlu ilə birgə yazdığımız mahnı var: "Uzaq yaşıl ada". Bir sıra dövlət məmurları həmin mahnının üzünü astarına çevirib "yaşıl" sözündən yapışmışdılar. Biri bunu islam həsrəti ilə bağlayır, o biri Məmmədəmin Rəsulzadə hökumətinin bayrağının rəmzi hesab edirdi. Digəri isə Müsavat və Demokratik Respublika həsrətində olduğunu deyirdi. Savadsızlığın dərəcəsinə bax! Mahnı yarananadək ensiklopediyada işləyirdim. Livan və Böyük Britaniya ensiklopediyalarında Azərbaycan dövlətinin indiki üçrəngli bayrağını dəfələrlə görmüşdüm. Bilirdim ki, bayraqda yaşıl rəng var, amma şeir yazanda qətiyyən bu haqda düşünməmişdim. Elə bil əllərinə fürsət düşmüşdü, cəld soruşurdular:

- Ə, sən bunu haradan bilirsən?

- Ensiklopediyada görmüşəm.

- Niyə baxmısan?

- Əşşi, necə yəni niyə baxmısan? Baxmışam, baxmışam da... Heç gör sözdür? Ensiklopediyada işləyirəm.

Mahnı iki ilə yaxın efirə həsrət qaldı. Nəhayət, bu məsələ Heydər Əliyevə çatdı. O, mahnıya qulaq asandan sonra, məndə olan məlumata görə məmurlara deyib:

- Lirik şeirdir, məhəbbət mahnısıdır. Mən mahnının sözlərinə və musiqisinə qulaq asmışam. Nə yapışmısınız bu cavan uşaqların yaxasından? Mahnını efirə buraxın!

O belə insan idi. Buna görə də əminliklə deyirəm: SSRİ dövründə Azərbaycanı Azərbaycan kimi tanıdan Heydər Əliyev olub. Bu, kimin xoşuna gəlir-gəlmir, öz işidir, amma həqiqət belədir.

Üzeyir Hacıbəyov, Bülbül, Rəşid Behbudov, Səməd Vurğun, Qara Qarayev, Rəsul Rza, Niyazi, Süleyman Rüstəm və başqa şəxsiyyətlərin adlarını çəkə bilərəm ki, Azərbaycanı istər sovet məkanında, istərsə də dünya miqyasında tanıdıblar. Azərbaycanın tanınmasında xüsusi xidmətləri olsa da, keçid dövründə ailələri yaddan çıxdı. Mən onları unudulmuş, yol qırağına atılmış ailələr adlandırırdım. Düzdür, Yusif və mən anama korluq çəkməyə imkan vermirdik. Amma tanınmış adamlar olsaq da, maddi cəhətdən əziyyət çəkirdik. Ancaq başqalarına baxanda ona da şükür edirdik. SSRİ Xalq artisti kimi tanınmış bir şəxsi zibil yeşiyində eşələnən görmüşdülər. Bu hadisə AXC-nin iqtidarda olduğu illərdə baş verib.

1993-cü ilin iyununda Heydər Əliyev hakimiyyətə rəhbərlik etmək üçün AXC hökuməti tərəfindən dəvət ediləndən sonra bu ailələrdən heç biri irad tuta bilməzdi ki, niyə bizimlə maraqlanmırsan? Çox qarışıq, mürəkkəb zəmanə idi. Qarşıdurma, separatçı hərəkatlar, daxili intriqalar...

Amma yenə insanların qayğısına qalırdı. Yadımdadır, avqust ayı idi, hələ prezident seçilməmişdi, anama zəng edib dedi:

- Xavər xanım, dolanışığınız necədir, başım qarışıqdır, açılan kimi hökmən sizinlə görüşəcəyəm...

Sonra məlum oldu ki, təkcə bizə yox, bütün tanınmışların ailələrinə zəng edib onların güzəranı ilə maraqlanıb. Yəni demək istəyirdi ki, mən həmin adamam, dəyişməmişəm. Həqiqətən də prezident seçildikdən sonra bir parça çörəyə möhtac qalan ziyalılarımıza - mədəniyyət və incəsənət xadimlərinin ailələrinə - kömək etdi. Həmçinin kənd təsərrüfatı, ağır sənaye və iqtisadiyyat sahəsində gecə-gündüz əlləşib, əlləri qabar olmuş, Sosialist Əməyi Qəhrəmanı adını almış, ancaq acından ölən insanları da yaddan çıxarmırdı. Heydər Əliyev hər kəsi bir-bir yadında saxlamışdı. Çox güclü və iti hafizə sahibiydi. Onu qəbul etməyən adamlar belə, etiraf edirdilər ki, Heydər Əliyev bizə lazımdır. Müsavat Partiyasının üzvü olarkən partiyanın qərargahındakı mətbuat konfransında şəxsən demişəm ki, Heydər Əliyev böyük dövlət başçısı və siyasi xadimdir. Bu, doğrudan da belədir. Başa düşməliydik ki, Heydər Əliyevdə olan böyük nüfuz və şəxsi tanışlıqları əldə etmək üçün bizə ən azı on il vaxt lazımdır. Elə Əbülfəz bəyə də bu qədər vaxt lazım olacaqdı. Həmin vaxt ərzində isə hər şeyimizi - ən azı müstəqilliyimizi itirib qapazaltı olacaqdıq. Heydər Əliyev doğrudan da ömrünün qalan hissəsini xalqına həsr etdi. Çox gərgin işlər gördü. Hesab edirəm ki, cənab İlham Əliyev, həqiqətən də əsl davamçıdır. Onunla parlamentin Avropa Şurasındakı nümayəndə heyətinin tərkibində 4 il bir kollektivdə çalışmışam. Həmin vəzifəyə təyin olunanda İlham Əliyevə elə adamlar irad tuturdular ki, onunla ikicə dəqiqə söhbət etməyiblər və şəxsi münasibətləri yoxdur. Tutalım, televizorda baxırlar ki, İlham Əliyev gülümsəyə-gülümsəyə olimpiya kompleksinin açılışına, ya voleybol komandasının oyununa baxmağa getdi. Onun haqqında təsəvvürləri yalnız bu olurdu. Axı siz İlham Əliyevi işdə görməmisiniz...

O, hələ prezident seçilməmiş ölkə üçün xeyirli işlər gördü: idman sahəsini inkişaf etdirdi və neft sektoruna xarici sərmayələrin qoyulmasına şərait yaratdı. Bu imkanı ona atası verdi. Əvvəla, dövlətin mənafeyi üçün bütün imkanlardan istifadə etmək siyasi xadimin borcudur, o cümlədən atanın da. Əlbəttə, əgər bunu öz xeyri üçün etmirsə. Bəs yaxşı, Avropa Şurasında necə? Avropa Şurasında Heydər Əliyev nə edə bilərdi? Onlar axı Prezident Aparatının işçiləri deyildilər ki, Heydər Əliyev tapşırsın: oğlum üçün filan işləri görün.

Şahidi olduğum hadisəni danışım. Rusiya kimi nəhəng ölkədə prezidentlik iddiasında olanlardan Dmitri Roqozin ondan məsləhət almaq üçün arxasınca qaçırdı. Dəhlizdə siqaret çəkirdim. Roqozin də Siyasi Komitənin iclasından çıxan kimi qaça-qaça üstümə gəlib dedi:

- Vaqif, Rusiyanı küncə qısnayırlar. İlham Heydəroviç haradadır, məsləhətinə ehtiyacım var...

Bunu da Heydər Əliyev etməmişdi ki...

Heydər Əliyev haqqında bir çox miflər yaranıb. Ürəyimə ən çox dəyəni isə Heydər Əliyevin avtoritar adlandırılmasıdır. Guya heç kimi dinləmirdi, bu, tamamilə yalandır. Şəxsən mənə imkan verirdi ki, 10-15 dəqiqə danışım, adi suallar belə verirdi. Necə diqqətlə qulaq asırdı! İndi avtoritar deyənə sual vermək lazımdır: bunu özün yoxlamısan?

İnsan haqları, ədalətsiz hökmlərlə bağlı birbaşa Heydər Əliyevə müraciətlər etmişəm. Çox diqqətlə qulaq asır, suallar verir, özünü və məni əmin edəndən sonra deyirdi:

- Hə, burada əyintilər olub, məhkəmənin qərarı ədalətsizlikdir...

Az keçməmiş, həmin adamları əfv edib həbsxanadan buraxdırırdı. Xəbərim olmadan məni əfv komissiyasına üzv etdi. Qısası, Azərbaycana çox lazımlı adam idi. Ancaq bəziləri elə bilirdi ki, Heydər Əliyev prezidentdir deyə kefə baxır.

Avropa Şurasında bayraq qaldırılan gün çıxışı oldu, sonra Robert Koçaryanla birlikdə mətbuat konfransı keçirdi. Həm onun üçün, həm də bizim üçün çox ağır gün idi. Mətbuat konfransından çıxanda məni çağırdı, son dərəcədə yorğun, bədbin vəziyyətdə əlini çiynimə qoyub dedi:

- İndi gördün, nələr çəkirəm?..

Son vaxtlar bu səhnəni tez-tez xatırlayıram. Onun yorğun səsi, üzü, həqiqətən prezidentliyin heç də asan iş olmadığından xəbər verirdi.

Azərbaycan kimi ölkədə prezidentlik çox ağır işdir.

Heydər Əliyevin səhnədə yıxılması mənə göydə uçan quşun bağrının çatlayıb yerə düşməsi səhnəsini xatırlatdı...

Hər halda, Allaha şükürlər edək ki, bizim Heydər Əliyevimiz olub, var. Amma çox istəməzdim elə vəziyyətə düşək ki, yenə Heydər Əliyevi axtaraq. Əlbəttə, əminəm, belə bir vəziyyətimiz olmayacaq. İlham Əliyev buna yol verməyəcək...

***Vaqif SƏMƏDOĞLU,***
***Xalq yazıçısı***

*9 may 2005-ci il*